**HİDAYƏTZADƏ TİMURÇİN İSMAYIL OĞLU**
**(1926)**
**Dilçi**

1926-cı ilin avqust ayında anadan olmuşdur. Orta məktəbi bitirərək 1943-1948-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin İngilis dili fakültəsində təhsil almışdır. 1962-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. 1968-1992-ci illərdə BDU-nun İngilis dili kafedrasının müdiri vəzifəsində işləmişdir. 3 monoqrafiya 5 dərslik, 20-dən artıq elmi məqalənin müəllifidir. Onun "İngilis dilinin fonetikası", "Beginners", "Учебник английского языка для историков" adlı dərslik və dərs vəsaitləri indi də öz aktuallığını saxlamaqdadır. Prezident təqaüdçüsüdür.